**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 yanvar tarixli 22 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"ndə dəyişiklik edilməsi haqqında**

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 mart tarixli 181 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 yanvar tarixli 22 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nə əlavə - "Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərin siyahısı və tarifləri"nin 2.1.546-cı yarımbəndinin "Tibbi xidmətin adı" sütununa "övladlığa götürmə" sözlərindən sonra "və himayədar ailə (himayədar valideyn) olma" sözləri əlavə edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, " 19 " aprel 2024-cü il

№ 38